Elm və İnnovativ Texnologiyalar Jurnalı
https://doi.org/10.30546/2616-4418.32.2025.3040
Nömrə 32, 2025. 105-117
http://www.ejsr.cloud

*İCMAL MƏQALƏ*

# AZƏRBAYCANDA SAHİBKARLARA DƏSTƏK MEXANİZMLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Emin ƏSƏDLİ**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Azərbaycan*
**0009-0009-6345-6914**

**Giriş.** Azərbaycanda sahibkarlığa dəstək mexanizmləri ölkənin iqtisadi inkişafının əsas dayaqlarından biridir. Sahibkarlığın inkişafı yeni iş yerlərinin yaradılması, qeyri-neft sektorunun gücləndirilməsi və ümumilikdə iqtisadiyyatın şaxələndirilməsi məqsədilə dövlət tərəfindən müxtəlif təşviq və dəstək mexanizmləri yaradılmışdır. Bu mexanizmlər sahibkarların qarşılaşdıqları maneələrin aradan qaldırılması, onların biznes fəaliyyətlərinin asanlaşdırılması və iqtisadi mühitin daha da yaxşılaşdırılması məqsədini güdür. Ölkə rəhbərliyi sahibkarlığın inkişafına xüsusi diqqət yetirir və bu sahədə müxtəlif tədbirlər həyata keçirir. Son illər ərzində kiçik və orta sahibkarlığın (KOS) inkişafı xüsusi önəm kəsb edir. Belə ki, bu sektor həm iqtisadi artıma, həm də sosial rifahın yüksəlməsinə töhfə verir. KOS sektorunun inkişafı öz növbəsində, məşğulluğun artırılması, regional inkişafın stimullaşdırılması və ümumi iqtisadi sabitliyin təmin olunmasına kömək edir.

BY NC ND

Azərbaycanda sahibkarlara dəstək mexanizmləri çoxşaxəlidir və müxtəlif sahələri əhatə edir. Dövlətin maliyyə dəstəyi sahibkarlara yüksək faizli kreditlərdən daha əlverişli şərtlərlə güzəştli kreditlər və qrantlar təqdim etməsini nəzərdə tutur. Bu maliyyə dəstəyi xüsusilə yeni bizneslərin qurulması, mövcud müəssisələrin genişləndirilməsi və innovativ layihələrin həyata keçirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Eyni zamanda vergi sahəsində həyata keçirilən islahatlar və vergi güzəştləri də sahibkarların yükünü azaldır, onların fəaliyyətini daha səmərəli və davamlı etməyə imkan verir. Bundan əlavə sahibkarların işgüzar bacarıqlarını artırmaq və onlara bazar tələblərinə uyğunlaşmağa kömək etmək məqsədilə müxtəlif təlimlər və seminarlar təşkil olunur. Bu təlimlər sahibkarlara biznes idarəetməsi, marketinq, hüquq və maliyyə sahələrində müasir yanaşmalar öyrədərək, onların bizneslərini daha effektiv idarə etmələrini təmin edir. Kadr hazırlığı və təhsil sahəsində dəstəklər yerli işçi qüvvəsinin inkişafına, sahibkarlığın gələcək uğurlarına xidmət edir.

**Materiallar və metodlar.** Azərbaycan iqtisadiyyatında sahibkarlığın inkişafı ölkənin sosial-iqtisadi sabitliyinin və dayanıqlı iqtisadi artımının əsas göstəricilərindən biridir. Sahibkarlara dəstək mexanizmlərinin qiymətləndirilməsi bu sahədə tətbiq olunan siyasətlərin, dövlət proqramlarının və institutların effektivliyini ölçmək baxımından əhəmiyyətlidir.

Materiallar əsasən normativ-hüquqi sənədlər, dövlət və beynəlxalq təşkilatların hesabatları, elmi məqalələr və sahibkarlarla aparılan sorğulara əsaslanır. İlk növbədə sahibkarlıq fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının qanunvericilik bazası araşdırılmışdır. Buraya "Sahibkarlıq fəaliyyəti haqqında" qanun, "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişaf Strategiyası" və digər dövlət proqramları daxildir. Həmçinin, İqtisadiyyat Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Statistika Komitəsi kimi dövlət qurumlarının hesabatları sahibkarlıq subyektlərinə göstərilən maliyyə və qeyri-maliyyə dəstəklərinin vəziyyətini qiymətləndirmək üçün əsas məlumat mənbələri sayıla bilər.

Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı kimi beynəlxalq təşkilatların hesabatları Azərbaycanda sahibkarlıq mühitinin dünya standartları ilə müqayisədə hansı vəziyyətdə olduğunu göstərmək baxımından mühüm rol oynayır. Bununla yanaşı, akademik mənbələr və müxtəlif tədqiqatlar vasitəsilə sahibkarlığın inkişafına təsir edən amillər və sahibkarlara göstərilən dəstək mexanizmlərinin iqtisadi təsirləri təhlil edilmişdir.

Məqalədə statistik məlumatların təhlili üçün rəsmi dövlət qurumlarının və beynəlxalq təşkilatların açıqladığı göstəricilər istifadə edilmiş, müvafiq indekslər və

göstəricilər əsasında sahibkarlıq mühitinin cari vəziyyəti və inkişaf tendensiyaları araşdırılmışdır.

**Təhlil və müzakirə.** Sahibkarlığın inkişafı, xüsusən kiçik və orta sahibkarlığın inkişafı hər bir ölkənin iqtisadi inkişafının əsasını təşkil edir. Azərbaycanda sahibkarlığa dəstək mexanizmləri ölkə iqtisadiyyatının şaxələndirilməsi, yeni iş yerlərinin yaradılması, yerli istehsalın gücləndirilməsi və iqtisadi sabitliyin təmin edilməsi baxımından çox böyük əhəmiyyətə malikdir. Bu mexanizmlər dövlətin sahibkarlara verdiyi maliyyə və qeyri-maliyyə dəstəyi, hüquqi yardımlar, elmi-texniki dəstək və infrastruktur təminatı kimi bir çox aspekti əhatə edir.

Azərbaycanda sahibkarlığa dəstək mexanizmlərinin tətbiqi bir çox sahələri əhatə edir və müxtəlif dövlət qurumları tərəfindən həyata keçirilir. Azərbaycanda KOB-lar (Kiçik və Orta Bizneslər) ölkə iqtisadiyyatının mühüm hissəsini təşkil edir. Onlar müxtəlif sahələrdə fəaliyyət göstərir, o cümlədən istehsalat, xidmət sektoru, ticarət, texnologiya və innovasiya. KOB-lar yerli bazarda və beynəlxalq aləmdə fəaliyyət göstərir, müxtəlif məhsul və xidmətlər təklif edir. Dövlət KOB-ların inkişafını dəstəkləmək üçün maliyyə, vergi güzəştləri və müxtəlif proqramlar vasitəsilə bu sahəni stimullaşdırır. Azərbaycanda KOB-lara dəstək vermək məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) fəaliyyət göstərir və bu qurum KOB-lara maliyyə, təlim və məsləhət xidmətləri təklif edir.

KOBİA-nın fəaliyyəti sahibkarlara müxtəlif istiqamətlərdə xidmət göstərməyi əhatə edir: maliyyə resurslarına çıxış, təlim və seminarlar, bazar araşdırmaları, beynəlxalq ticarət əlaqələrinin genişləndirilməsi və digər sahələrdə dəstək. KOBİA tərəfindən sahibkarlara təklif olunan maliyyə mexanizmləri arasında subsidiyalar, vergilərin azaldılması və kreditlər kimi alətlər yer alır. Bu alətlər, sahibkarlığın inkişafına dəstək verməklə yanaşı, ölkə iqtisadiyyatının şaxələndirilməsinə və rəqabət qabiliyyətinin artırılmasına yönəlir [2, s. 47].

Azərbaycanda sahibkarlara verilən maliyyə dəstəyi, xüsusən də kiçik və orta biznesin inkişafını dəstəkləmək məqsədilə kreditlərin verilməsi və subsidiyalarla təmin edilməsi ilə həyata keçirilir. Dövlət tərəfindən sahibkarlara verilən investisiya kreditləri, kiçik biznesin inkişafı üçün daha əlverişli şərtlər təqdim edir. Eləcə də vergi güzəştləri və azaldılmış vergi dərəcələri kimi tədbirlər sahibkarlara maliyyə yükünü azaltmaqla, onların iqtisadiyyatdakı fəaliyyətlərini genişləndirməyə şərait yaradır. Dövlətin maliyyə dəstək mexanizmləri, prioritet iqtisadi sahələrdə fəaliyyət göstərən sahibkarlara dəstək verməkdə mühüm rol oynayır. Azərbaycanda sahibkarlığın inkişafını təşviq edən və xüsusilə kiçik və orta biznes sahəsinə istiqamətlənmiş Sahibkarlığın İnkişafı Fondunun maliyyə mexanizmləri ölkənin biznes mühitinin gücləndirilməsi üçün həyata keçirilən dövlət siyasətinin əsas vasitələrindəndir. Bu baxımdan güzəştli kredit mexanizmi sahibkarların bizneslərini

böyütmək üçün müraciət etdikləri əsas maliyyə vasitələrindən biri sayıla bilər [4, s. 806]. Qeyd etmək lazımdır ki, 2024-cü ildə bu mexanizmdən yararlanan sahibkarların sayı olduqca artmışdır.




**Mənbə:** *https://caliber.az/post/azerbajdzhanskie-predprinimateli-razvivayut-biznes-s-pomoshyu-lgotnyh-finansovyh-mehanizmov-gosudarstva*

**Qrafik 1.** Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2023 və 2024-cü illərdə verilən güzəştli kreditlər

Şəkildə "Sahibkarlığın İnkişafı Fondu" tərəfindən verilən güzəştli kreditlər haqqında statistik məlumatlar əks olunub. 2023-cü ildə 3.276 layihəyə güzəştli kredit ayrıldığı halda, 2024-cü ildə bu rəqəm 5.722-yə yüksəlib ki, bu da 74,7% artım deməkdir. Eyni zamanda ayrılan kredit məbləği 2023-cü ildə 193,8 milyon manat olduğu halda, 2024-cü ildə 248,1 milyon manata çataraq 28% artım nümayiş etdirib. Bu statistika göstərir ki, 2024-cü ildə həm sahibkarlara verilən güzəştli kreditlərin sayı, həm də ümumi məbləği əhəmiyyətli dərəcədə artmışdır [5].

Bundan əlavə, təlim-tədris proqramları da dövlətin sahibkarlığa verdiyi dəstəklərin vacib hissəsidir. Müəyyən proqramlar və kurslar sahibkarlara biznes idarəçiliyi, maliyyə planlaması, marketinq strategiyaları və digər sahələrdə peşəkar biliklər qazandırmağa yönəlir. Bu kimi proqramlar sahibkarların daha səmərəli fəaliyyət göstərməsinə və onların bazar şərtlərinə uyğunlaşmasına kömək edir.

Azərbaycanda sahibkarlığın inkişafında dövlət-özəl əməkdaşlığı da mühüm rol oynayır və müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilir. Dövlətin iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun gücləndirilməsi istiqamətində atdığı addımlar çərçivəsində sahibkarlarla əməkdaşlıq modeli getdikcə daha çox ön plana çıxır. Birincisi, sahibkarlığa dəstək fondları və güzəştli kreditlər bu əməkdaşlığın əsas alətlərindən biridir. Sahibkarlığın İnkişafı Fondu və digər maliyyə institutları vasitəsilə kiçik və orta sahibkarlara (KOB) güzəştli kreditlər ayrılır, onların biznes fəaliyyətinin genişlənməsi üçün maliyyə imkanları yaradılır. Bu, sahibkarlıq subyektlərinin inkişafını sürətləndirərək ölkə iqtisadiyyatına töhfə verir.

İkincisi, investisiya təşviqi və vergi güzəştləri dövlətin sahibkarlara dəstək verdiyi digər əsas mexanizmlərdəndir. Strateji sahələrdə fəaliyyət göstərən və investisiya təşviqi sənədi alan sahibkarlara vergi və gömrük rüsumlarında güzəştlər tətbiq olunur. Bu, xüsusilə sənaye, kənd təsərrüfatı və innovativ texnologiyalar sahəsində çalışan bizneslər üçün mühüm stimuldur.

Üçüncüsü, sahibkarlığın tənzimlənməsində və inkişafında institusional dəstək mexanizmləri gücləndirilib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi dövlət-özəl əməkdaşlığının təşkili, sahibkarların hüquqlarının müdafiəsi və onların inkişafına dəstək vermək üçün yaradılmışdır. Bu agentlik vasitəsilə sahibkarlara məsləhət xidmətləri, startap və innovasiya layihələri üçün dəstək proqramları təklif edilir.

Dördüncüsü, Dövlət-Özəl Tərəfdaşlıq layihələri çərçivəsində bir çox infrastruktur layihələri həyata keçirilir. Yol, nəqliyyat, enerji və səhiyyə kimi sahələrdə dövlət-özəl əməkdaşlığı modeli tətbiq olunaraq uzunmüddətli investisiyaların cəlb edilməsi təmin edilir. Bu model sahibkarlara dövlət sifarişləri və uzunmüddətli biznes perspektivləri yaradır.

Beşincisi, rəqəmsallaşma və elektron hökumət həlləri sahibkarların fəaliyyətini asanlaşdırır. "ASAN xidmət", "e-gov" platforması və "Rəqəmsal Azərbaycan" təşəbbüsləri vasitəsilə sahibkarlar müxtəlif dövlət xidmətlərinə operativ və şəffaf şəkildə çıxış əldə edirlər. Elektron vergi bəyannamələri, lisenziyalaşdırma və digər inzibati prosedurların avtomatlaşdırılması biznes mühitinin yaxşılaşmasına səbəb olur [6].

Son olaraq, dövlət-özəl əməkdaşlığı çərçivəsində sənaye parkları və aqroparklar yaradılaraq sahibkarlara infrastruktur dəstəyi verilir. Belə iqtisadi zonalarda fəaliyyət göstərən şirkətlər bir sıra vergi və rüsum güzəştlərindən faydalanır, eyni zamanda innovativ texnologiyalardan istifadə edərək rəqabət qabiliyyətlərini artırırlar. Bütün bu tədbirlər göstərir ki, Azərbaycanda dövlət və özəl sektor arasında əməkdaşlıq sahibkarlığın inkişafı üçün əlverişli mühit yaradır və iqtisadiyyatın dayanıqlı böyüməsinə töhfə verir.

Bununla yanaşı, ölkəmizdə sahibkarlara verilən dəstəyin həyata keçirilməsində müəyyən problemlər mövcuddur. İlk növbədə dövlətin təklif etdiyi maliyyə resursları və subsidiyaların effektiv şəkildə sahibkarlara çatdırılması üçün bürokratik maneələr və mürəkkəb prosedurlar bəzən çətinlik yaradır. Sahibkarların dövlət tərəfindən verilən kreditlərdən istifadə etmələri üçün çoxsaylı müraciətlər, sənədləşmə və təsdiqləmə prosesləri, onların vaxtını və resurslarını sərf etmələrinə səbəb olur. Bu da xüsusilə kiçik sahibkarlıq subyektlərinin resurs çatışmazlığı səbəbindən problemlərlə qarşılaşmalarına gətirib çıxarır.

Digər tərəfdən regionlar arasında sahibkarlara verilən dəstəyin bərabər şəkildə paylanmaması da problem olaraq qalır. Bakı və digər iri şəhərlərdə fəaliyyət göstərən sahibkarlara verilən dəstək bölgələrdəki sahibkarlara nisbətən daha çox olur. Regionlarda sahibkarlara lazımi infrastruktur, texniki və maliyyə dəstəyi, biznes şəbəkələri və təlim imkanlarının çatışmazlığı onların inkişafını məhdudlaşdırır.Bundan əlavə, müasir dövrdə iqtisadiyyatın əhəmiyyəti getdikcə artır. Bu sahədə inkişaf etməkdə olan ölkələr, xüsusilə Azərbaycanda rəqəmsal xidmətlər və texnologiyalarla bağlı dəstək mexanizmlərinin tətbiqi olduqca vacibdir. Sahibkarlara rəqəmsal alətlərdən istifadə etmələri üçün yardım və təlim proqramlarının təşkil edilməsi, onların bazara daha sürətli çıxışına və daha geniş müştəri bazası əldə etmələrinə kömək edə bilər. Azərbaycanda bu sahəyə dəstək göstərən mexanizmlərin hələ də kifayət qədər inkişaf etmədiyi və sahibkarlara rəqəmsal transformasiya istiqamətində daha çox dəstək verilməli olduğu görünür [3, s. 122].

Sahibkarlara verilən dəstəyin qiymətləndirilməsi üçün bir neçə əsas amil nəzərə alınmalıdır. İlk növbədə bu dəstəyin sahibkarlara nə qədər təsir etdiyi və onların iqtisadi fəaliyyətinə necə təsir göstərdiyi ölçülməlidir. Məsələn, verilən subsidiyaların və kreditlərin şirkətlərin inkişafına, işçi qüvvəsinin artırılmasına və məhsul istehsalının yüksəlməsinə necə təsir etdiyi dəyərləndirilməlidir. Eyni zamanda sahibkarlara təqdim edilən hüquqi məsləhət xidmətlərinin səmərəliliyi və onlara real yardım göstərməsi vacibdir. Təqdim edilən təlim və maarifləndirmə proqramlarının keyfiyyəti və sahibkarlar üçün praktik faydası da qiymətləndirilməlidir.

**Nəticə.** Azərbaycanda sahibkarlara verilən dəstək mexanizmləri ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Dövlətin maliyyə dəstəyi, vergi güzəştləri, hüquqi və təhsil sahəsindəki təşəbbüslər sahibkarlığın inkişafını dəstəkləyən əsas amillərdən biridir. Bu mexanizmlər kiçik və orta biznesin çiçəklənməsinə, yeni iş yerlərinin yaradılmasına və iqtisadiyyatın diversifikasiyasına müsbət təsir göstərir. O cümlədən sahibkarlara beynəlxalq bazarlara çıxış və innovativ texnologiyaların tətbiqi kimi sahələrdə daha çox dəstək verilməsi zəruridir.

Dövlətin sahibkarlara olan diqqəti və göstərilən dəstəklərin artırılması ölkənin iqtisadi potensialının daha da güclənməsinə səbəb olacaqdır. Sahibkarlığın inkişafı sadəcə iqtisadi artımın deyil, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Ancaq bürokratik maneələrin və hüquqi çətinliklərin aradan qaldırılması, sahibkarların beynəlxalq bazarlara çıxışının asanlaşdırılması və texnoloji yeniliklərin tətbiqinin genişləndirilməsi hələ də prioritet məsələlərdən biridir. Sahibkarlara verilən dəstək mexanizmlərinin təkmilləşdirilməsi üçün bir neçə əsas təklif irəli sürülə bilər:

• bürokratik prosedurların sadələşdirilməsi və daha şəffaf sistemlərin yaradılmalı;

• sahibkarlara dövlət dəstəyindən daha asan və sürətli şəkildə yararlanmaq imkanı verilməli;

• regionlar üzrə balanslı dəstəyin təmin edilməsi üçün dövlət proqramları daha da optimallaşdırılmalı və bölgələrdəki sahibkarlara daha çox diqqət yetirilməli;

• rəqəmsal iqtisadiyyatın inkişafı üçün sahibkarlara texnoloji dəstək verilməli, onların rəqəmsal transformasiyaya uyğunlaşmasına kömək olunmalıdır.

Nəticə etibarilə, Azərbaycanda sahibkarlığa verilən dəstək mexanizmləri effektiv şəkildə işləyir, amma bu mexanizmlərin daha da təkmilləşdirilməsi və gücləndirilməsi iqtisadiyyatın daha da müasirləşməsinə və rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərəcəkdir.

## Açıqlama bəyanatı

Məqalə çərçivəsində təqdim edilən məlumatlar və irəli sürülən mülahizələr müəllifin elmi yanaşması olmaqla, qurum (rəsmi) mövqeyini əks etdirməməkdədir.

## Əlaqə

**E-mail**: eminsdli722@gmail.com

## Ədəbiyyat:

Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 31 iyul 2018-ci il.

Əvəzov Y. Azərbaycanın regionlarında sahibkarlıq fəaliyyətinin təşkilati-iqtisadi və maliyyə mexanizmləri. Geostrategiya. 2023, 201 s.

Hacıyev C., Ahadov V. Azerbaycan'da Girişimciliğin Gelişmesinde Kurumsal Düzenlemenin Rolünün Artırılması. Moskova: Tüm Rusya'nın Bilimsel ve Analitik Dergisi "Financial Economics". 2021. 205 s.

Имамвердиева Ч.Р. Повышение эффективности государственной поддержки малого предпринимательства в туристическом секторе Азербайджана // Российское предпринимательство. – 2019. – Том 20. 1024 с.

https://caliber.az/post/azerbajdzhanskie-predprinimateli-razvivayut-biznes-s-pomoshyu-lgotnyh-finansovyh-mehanizmov-gosudarstva

https://economy.gov.az/az/post/2500/sahibkarlar-dovletin-guzestli-maliyye-mexanizmleri-ile-bizneslerini-inkisaf-etdirirler

**Məqaləyə istinad:** Əsədli..E. Azərbaycanda Sahibkarlara Dəstək Mexanizmlərinin qiymətləndirilməsi. Elm və İnnovativ Texnologiyalar Jurnalı. Nömrə 32, 2025. S.96-117. https://doi.org/10.30546/2616-4418.32.2025.2097

## XÜLASƏ

## Azərbaycanda sahibkarlara dəstək mexanizmlərinin qiymətləndirilməsi

**Emin ƏSƏDLİ**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Azərbaycan**

Azərbaycanda sahibkarlara dəstək mexanizmləri ölkənin iqtisadiyyatının inkişafını sürətləndirmək və işgüzar mühiti yaxşılaşdırmaq məqsədilə müxtəlif tədbirlər və proqramlarla həyata keçirilir. Bu mexanizmlər əsasən kiçik və orta sahibkarlara yönəlmişdir və onların fəaliyyətini asanlaşdırmaq üçün bir sıra imkanlar təqdim edilir. Dövlət sahibkarlara maliyyə dəstəyi olaraq güzəştli kreditlər, qrant proqramları və müxtəlif investisiya təşviqləri təklif edir. Vergi sahəsindəki islahatlar isə yeni bizneslərin və kiçik müəssisələrin inkişafına dəstək verir. Sahibkarlara müxtəlif sahələrdə təlimlər və kadr hazırlığına da diqqət yetirilir, bununla da, onlar işlərini daha səmərəli idarə etməyə və yeni bazarlara daxil olmağa hazır olurlar. Bu mexanizmlər ölkə iqtisadiyyatının diversifikasiyasına və sahibkarlığın inkişafına mühüm töhfə verir. Bu baxımdan məqalənin məqsəd Azərbaycanda sahibkarlara verilən dəstək mexanizmlərinin effektivliyini və bu mexanizmlərin kiçik və orta sahibkarlığın inkişafına olan təsirini araşdırmaqdan ibarətdir. Bu məqsədlə tətbiq olunan maliyyə, vergi, hüquqi, infrastruktur və təhsil dəstəyi mexanizmlərinin vəziyyəti və işgüzar mühitin təhlilinə aparılmışdır. Mövcud problemlərin müəyyən edilməsi və sahibkarlara təqdim olunan dəstək mexanizmlərinin müasir dövrün tələblərinə uyğun olmaması, qarşılaşılan çətinliklər araşdırılmış, sahibkarların maliyyə resurslarına çıxış imkanları və kreditləşmə prosesindəki maneələr təhlil edilərək, bu problemlərin həlli üçün təkliflər irəli sürülmüşdür.

Metodoloji yanaşma olaraq ilkin mərhələdə tədqiqat, keyfiyyət və kəmiyyət yanaşmalarını birləşdirən qarışıq metod tətbiq olunmuşdur. Daha sonra məlumatların toplanması yerinə yetirilmiş, ikinci dərəcəli məlumatlar da nəzərdən keçirilərək Azərbaycanda sahibkarlara verilən dəstək mexanizmlərinə dair mövcud dövlət proqramları, rəsmi hesabatlar, qanunvericilik sənədləri və iqtisadi göstəricilər araşdırılmışdır. Məlumatların təhlili mərhələsində toplanan məlumatlar statistik üsullarla təhlil edilir. Məqalənin sonunda əldə edilən nəticələrə əsaslanaraq, təkliflər verilmişdir. Bu təkliflər Azərbaycanda sahibkarlara verilən dəstək mexanizmlərinin güclü və zəif tərəflərini müəyyənləşdirir.

***Açar sözlər:*** İşgüzar mühit, dünya təcrübəsi, proqramlar, dəstək mexanizmləri, sahibkarlığın inkişafı

## SUMMARY

## Evaluation of support mechanisms for Entrepreneurs in Azerbaijan

**Emin ASADLI**
**Azerbaijan Academy of Labor and Social Relations, Azerbaijan**

In Azerbaijan, support mechanisms for entrepreneurs are implemented through various measures and programs in order to accelerate the development of the country's economy and improve the business environment. These mechanisms are mainly aimed at small and medium-sized entrepreneurs and provide a number of opportunities to facilitate their activities. The state offers entrepreneurs preferential loans, grant programs and various investment incentives as financial support. Tax reforms support the development of new businesses and small enterprises. Attention is also paid to training and staff training for entrepreneurs in various fields, thereby preparing them to manage their businesses more efficiently and enter new markets. These mechanisms make a significant contribution to the diversification of the country's economy and the development of entrepreneurship. In this regard, the aim of the article is to examine the effectiveness of support mechanisms provided to entrepreneurs in Azerbaijan and the impact of these mechanisms on the development of small and medium-sized enterprises. For this purpose, the state of applied financial, tax, legal, infrastructure and educational support mechanisms and the business environment were analyzed. The existing problems were identified and the lack of compliance of the support mechanisms provided to entrepreneurs with the requirements of the modern era, the difficulties encountered were investigated, the access of entrepreneurs to financial resources and the obstacles in the crediting process were analyzed, and proposals were put forward to solve these problems.

As a methodological approach, a mixed method combining research, qualitative and quantitative approaches was applied at the initial stage. Then, data collection was carried out, secondary data was also reviewed, and existing state programs, official reports, legislative documents and economic indicators on the support mechanisms provided to entrepreneurs in Azerbaijan were examined. At the data analysis stage, the data collected was analyzed using statistical methods.

At the end of the article, proposals were made based on the results obtained. These proposals determine the strengths and weaknesses of the support mechanisms provided to entrepreneurs in Azerbaijan.

***Keywords:*** Business environment, world experience, programs, support mechanisms, entrepreneurship development

## РЕЗЮМЕ

### Изучение проблем старости и одиночества с точки зрения социальных служб

**Элиза ИСМАИЛОВА**
**Бакинский Государственный Университет, Азербайджан**

В Азербайджане механизмы поддержки предпринимателей реализуются посредством различных мер и программ, направленных на ускорение развития экономики страны и улучшение деловой среды. Данные механизмы ориентированы в основном на субъектов малого и среднего предпринимательства и предоставляют ряд возможностей для содействия их деятельности. Государство предлагает предпринимателям льготные кредиты, грантовые программы и различные инвестиционные стимулы в качестве финансовой поддержки. Налоговые реформы поддерживают развитие новых предприятий и малого бизнеса. Также уделяется внимание обучению и подготовке кадров для предпринимателей в различных сферах, тем самым готовя их к более эффективному управлению своим бизнесом и выходу на новые рынки. Эти механизмы вносят значительный вклад в диверсификацию экономики страны и развитие предпринимательства. В связи с этим целью статьи является рассмотрение эффективности механизмов поддержки, предоставляемых предпринимателям в Азербайджане, и влияние этих механизмов на развитие малого и среднего предпринимательства. Для этого было проанализировано состояние применяемых финансовых, налоговых, правовых, инфраструктурных и образовательных механизмов поддержки, а также бизнес-среда. Были выявлены существующие проблемы и несоответствие механизмов поддержки предпринимателей требованиям современной эпохи, исследованы возникшие трудности, проанализированы доступ предпринимателей к финансовым ресурсам и препятствия в процессе кредитования, а также выдвинуты предложения по решению этих проблем.

В качестве методического подхода на начальном этапе исследования был применен смешанный метод, сочетающий качественный и количественный подходы. Затем был проведен сбор данных, также были рассмотрены вторичные данные, изучены существующие государственные программы, официальные отчеты, законодательные документы и экономические показатели по механизмам поддержки, предоставляемым предпринимателям в Азербайджане. На этапе анализа данных собранные данные анализируются с использованием статистических методов. В конце статьи даны предложения,

основанные на полученных результатах. В этих предложениях определены сильные и слабые стороны механизмов поддержки, предоставляемых предпринимателям в Азербайджане.

***Ключевые слова:*** Бизнес-среда, мировой опыт, программы, механизмы поддержки, развитие предпринимательства